# Dastana çevrilən qəhrəmanlıq

**Müharibələr dünyanın qəm pəncərəsinin bir gözünü bizim igid, qəhrəman oğullarımıza açdı. Haqq işimiz naminə neçə-neçə övladımız bu pəncərədən bircə baxışla keçib getdi. Azərbaycanın Milli Qəhrəmanı Ələkbər Əliyev kimi…**

Ələkbərlə ilk tanışlığım 1973-cü illərə təsadüf edir. Sumqayıt Kimya Zavodunun şəhərin 22-ci məhəlləsində yerləşən yataqxanasında qalırdım. Otaq yoldaşım Bəşir Behbudovun qohumu idi, politexnik texnikumunda oxuyurdu. Otağımıza gələndə tanış olmuşduq. Ələkbər ilk görüşdən ürəyimə yatmış, mənim üçüm doğma və əziz bir adama çevrilmişdi. Mərd və cüssəli idi. Üz-gözündən nur tökülürdü. Sözündən, söhbətindən doymaq olmurdu. Zarafatından da qalmırdı. Doğma Qubadlı dağlarının əzəməti, gül-çiçəkli yamacların ətri, Həkəri və Bərgüşad çaylarına süzülən suların şirinliyi sanki onun vücuduna hopmuşdu. Hər adam onun qolunu əyə bilməzdi…

İllər ötdü, tale yollarımızı ayırdı. Yaxın qohumlarından öyrəndim ki, Ələkbər hərbi xidmətini başa vurduqdan sonra doğma elinə dönüb…

O, 22 dekabr 1955-ci ildə Qubadlı rayonunun İşıqlı kəndində doğulub. Orta təhsilini Muradxanlı kəndində alıb. 1972-ci ildə Sumqayıt Politexnik Texnikumuna daxil olub, 2 il ordu sıralarında xidmət edib. Vətənə döndükdən sonra Qubadlı rayon Kimya Birliyində çalışıb. Bir müddət sovxoz direktorunun müavini işləyib.

1990-cı illərdə xain qonşularımızın torpaqlarımıza göz dikməsi, havadarlarına arxalanıb sərhədboyu kəndlərimizə hücumlar təşkil etməsi Ələkbərə və onun kimi igid oğullarımıza rahatlıq vermirdi. Ələkbər erməni vəhşiliyinə qarşı mübarizə üçün özünümüdafiə dəstəsi yaradaraq elobanın müdafiəsinə qalxır. Döyüşlərdə əsl qəhrəman kimi vuruşurdu.

İşğala məruz qalan torpaqların azad edilməsi Ələkbərin ən böyük arzusu idi. O və silahdaşları Laçın rayonunun Türklər, Səfiyan, Suarası kəndlərində gedən döyüşlərdə onlarla erməni yaraqlısını məhv edirlər. 1992-ci ilin yay aylarında isə Suarası tərəflərdə hərbi əməliyyatlar aparılır. Avqustun 7-də Ələkbərgil ölüm-dirim mübarizəsinə atılırlar. O, burada mühasirəyə düşənlərin köməyinə çatır. Komandir öz əsgərlərini düşmən pəncəsindən xilas etmək üçün əlbəyaxa döyüşə girir. Neçə-neçə erməni quldurunu süngüdən keçirən cəsur döyüşçü qəhrəmanlıqla həlak olur. Şəhidlik məqamına ucalır. Bakıdakı Şəhidlər xiyabanında torpağa tapşırılır.

Azərbaycan Respublikası Prezidentinin 1992-ci il dekabrın 7-də imzaladığı fərmanla Ələkbər Həsən oğlu Əliyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Bakı şəhəri, Xətai rayonundakı 204 nömrəli tam orta məktəb indi onun adını daşıyır.



Bəli Ələkbər Vətən yolunda canından keçdi, şəhid oldu. Döyüş yoldaşlarının söylədikləri kimi, Vətənə bağlılıq, düşmənə nifrət, cəsurluq, qəhrəmanlıq sanki onun alnına yazılmışdı. Buna görə də Vətənin dar günündə silaha sarılaraq canını bu yolda qurban verdi.

Onun qəhrəmanlığı dastana çevrildi. Haqqında çoxsaylı məqalələr yazıldı, nəğmələr oxundu. Milli Qəhrəmanımızın həyat və döyüş yolunu əks etdirən "Qəhrəman ömrü" sənədli filmi isə sosial mediada və anım tədbirlərində geniş təqdim olunmaqdadır.

…Sağ qalsaydı, 70 yaşı tamam olacaqdı. Bu ərəfədə onunla bağlı gənclik illərinin xatirələri bir daha gözlərim qarşısında canlandı. Bizim ilk tanışlığımıza körpü salan Bəşir Behbudovla əlaqə saxladım. Dedi ki, Ələkbərin adı ilə fəxr edirik. Dörd uşağı yadigar qalıb. Hamısı ailə qurub, ev-eşik sahibi olub. Nəvələrinin birinin adını Ələkbər qoyublar. Həyat yoldaşı Reyhan Zeyniyeva qaçqınlıq həyatı yaşasa da, uşaqlarının korluq çəkməsinə imkan verməyib. Zəhmətə qatlaşaraq onları böyüdüb, ailə, oğul-uşaq sahibi eləyib.

Ruhun şad, 70 yaşın mübarək olsun, Qəhrəman şəhidim!

***Sübhan QULİYEV,***
***"Sumqayıt" qəzetinin baş redaktoru***